# Kürdəmir: Şəhər böyüyür, abadlıq işləri ara vermir





Yanvarın 29-da rayon icra hakimiyyətinin akt zalında Kürdəmir şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsinin hesabat yığıncağı keçirildi.

Hesabat məruzəsi ilə çıxış edən Kürdəmir şəhər inzibati ərazi nümayəndəsi İlqar Salmanov 2019-cu ildə görülən işlər və 2020-ci ildə qarşıda duran vəzifələr barədə yığıncaq iştirakçılarına ətraflı məlumat verdi. Məruzədə qeyd olundu ki, hesabat ilində Kürdəmir şəhərində tikinti, quruculuq və abadlıq işləri geniş vüsət almış, şəhərin küçə və meydanlarının abadlaşdırılması ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Bu gün Kürdəmir şəhəri sözün əsl mənasında respublikamızın hər cür yaşayış imkanlarına malik abad və yaraşıqlı şəhərlərindən biridir.

İlqar Salmanov küçə və meydançalarda görülən yenidənqurma işlərindən, infrastrukturun təzələnməsi məqsədilə nəzərdə tutulan layihələrin gerçəkləşməsindən konkret misallar göstərdi. Yola salınan 2019-cu ildə şəhər sakinlərinin məişət şəraiti, o cümlədən mənzillərin qaz, işıq, elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin olunması sahəsində mühüm tədbirlər görülmüşdür.

Kürdəmir şəhər bələdiyyəsinin sədr müavini Məzahir Qasımov, Kürdəmir rayon Kommunal Müəssisələri Kombinatının direktoru Məhəmmədəli Surxayev, Mənzil İstismar Sahəsinin rəisi Sərvər Məmmədov, rayon Yaşıllaşdırma İdarəsinin rəisi Emil Sadıqov, şəhər sakini Tofiq Baloğlanov və başqaları çıxış edərək dövlətimizin başçısının regionların sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirdiyi işlərdən razı qaldıqlarını, rayonlarda, qəsəbə və kəndlərdə aparılan quruculuq işlərini bəyəndiklərini bildirdilər.

Yığıncaqda çıxış edən Kürdəmir Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Tacəddin Novruzov 2019-cu il ərzində Kürdəmir rayonunda sosial-iqtisadi sahədə görülmüş işləri geniş şərh edərək 2020-ci ildə həyata keçiriləsi layihələr barədə ətraflı məlumat verdi. Tacəddin Novruzov qeyd etdi ki, 2019-cu ildə rayon ərazisində xeyli işlər görülmüş, irimiqyaslı tikinti, abadlıq-quruculuq işləri həyata keçirilmişdir. O vurğuladı ki, möhtərəm Prezidentimizin rayonumuza göstərdiyi qayğı və diqqət, aparılan sistemli iş, inkişafın yeni hədəflərinin müəyyən edilməsi onu deməyə əsas verir ki, 2020-ci ildə nailiyyətlərimiz daha da artacaq, rayonumuz daha da abadlaşacaq, əhalinin rifah halı gündən-günə yüksələcəkdir.

Tədbirdə mövcud problemlərdən danışıldı, sakinləri maraqlandıran suallar cavablandırıldı, bir sıra müraciətlərin həlli ilə bağlı müvafiq təkliflər verildi.

**Tofiq HÜSEYN,**
**"Respublika".**